Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 31, 2024. 96-110
https://doi.org/10.30546/2616-4418.31.2024.3040 http://www.ejsr.cloud

# YAŞLILIQ VƏ YALNIZLIĞIN SOSİAL XİDMƏT PERSPEKTİVİNDƏN ARAŞDIRILMASI

**Elizə İSMAYILOVA**
*Bakı Dövlət Universiteti, Azərbaycan*

**0009-0004-9542-446X**

## Giriş

Bu tədqiqatı, Azərbaycanın yaşlı, ahıl və məxsusən yaşlı-yalnız insanları üçün ilk yardım və qaygı xidmətinin əsaslı təməlini qoymuş böyük şəxsiyyət, milli burjaziyamızda həm də xeyriyyəçilyin əsasını qoymuş Hacı Hacağa Dadaşovun 155 il bundan əvvəl Çar Rusiyasının Dumasında söylədiyi kəlamla başlamaq istəyirəm. “Məmləkətin imkanlı şəxsləri razı olmamalıdır ki, onun qoca, kimsəsiz ahıl, yalqız adamları küçələrdə qalsın. Mən bütün xərcləri öz üzərimə götürərək qocalar evinin açılmasını təklif edirəm” [1]. Bu gün elm adamlarının diqqət mərkəzində duran, yaşlı insanların layiqli həyat yaşamalarını saxlayan bir cox sosial problemlərin tədqiq olunması və müzakirələrin aparılması türk xalqlarının milli-mənəvi dəyərlər

CC BY NC ND

sistemində var olan yaşlılara, ahıl-yalnızla göstərilən qayğı, diqqət və böyüklərə hörmətın, tarixi sosial hadisənin bir nümunəsidir. Cəmiyyətimizdə yalnız yaşayan yaşlıların sosial problemlərinın qarşılanması, həyatlarının daha yaşlı dönəmlərində layiqli həyat keyfiyyətlərinə malik olma haqınnın onlara verilməsi ilə bağlı problemlər və həlli yollarını araşdırmağa çalışacam. Yalnız yaşayan yaşlıların ailə içində, dövlət müəssisələrində və tənha yaşam həyatına aid sosial sərmayələrindən istifadə imkanlarının və sosiallaşma prosesində yaranan problemlərin aradan qaldırılmasına yönəlik təhlilin aparılması cəmiyyətimizin sürətlı qocalmaya doğru getdiyi bir zamanda yaşlıların aktiv və qayğısız həyat tərzi, müasir yetkin yaşlıların və gələcək nəsillərin həyata daha doğru və aydın baxışının formalaşmasına təsir etməsini də nəzərdə tutur.

## Tədqiqatın məqsədi və problemi

Əhalinin yaşlı kateqoriyasının ehtiyaclarının qiymətləndirilməsi və buna uyğun olaraq ölkənin inkişaf strategiyasında fəaliyyət istiqamətlərinin planlaşdırılması ilk növbədə demoqrafik vəziyyətin monitorinqi və əhali inkişafının meylləri əsasında həyata keçilir. Bununla yanaşı, yaşlı insan inkişafının əsas meyarlarından biri də layiqli yaşayış standartlarının göstəricisidir. Birləşmiş Millətlət Təşkilatının hələ 2003 ildə açıqladığı məlumatda deyilir ki, dünya əhalsinin qocalması getdikcə daha çox müşahidə olunmağa başlayıb. Daha yaşlı əhalinin ümumi yaşlı qrupuna nibətinin irəlidə olduğu təxmin edir. Belə ki, 2000-ci ildə dünya əhalisinin 80 yaşdan yuxarı insanların sayının 69 milyondan, 2050-ci ildə isə beş dəfə artaraq 377 milyona çatacağına inanılır. Bu məsələ ətrafındakı müzakirələr və mübahisələr nəticəsində üç nöqteyi-nəzər formalaşmışdır:

*1) yaşlı əhalinin artımı sosial-iqtisadi inkişafi məhdudlaşdırır;*

*2) yaşlı əhalinin artımı sosial-iqtisadi inkişafa təkan verir;*

*3) yaşlı əhali artımı və sosial-iqtisadi inkişaf arasında asılılıq yoxdur.*

Hər bir nöqteyi-nəzərin tərəfdarları öz fikrinin xeyrinə bir sıra sübutlar göstərirlər. Bu səbəbdəndir ki, yaşlılara, xüsusiylə yalnız yaşlıların sosial rifahı ilə əlaqədar narahatçılıqlar vardır. “Azərbaycanın güclü iqtisadi inkişafının olmasına baxmayaraq yaşlı insanların rifahını saxlamaq məqsədiylə, son on illiklərdə yaşlanmanı daha kefiyyətli yaşlanmanın mümkünlüyünə çalışır” [2]. Ölkəmizdə orta ömür üzünlüğunun artması, doğum səviyyəsinin azalması, əhalinin yaş srukturunda yaşlıların payının artmasına səbəb olub. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin açıqladığı məlumatda 2020-ci ildə 60 və daha yuxarı yaş qrupuna daxil olan insanların xüsusi çəkisi umumi əhalinin 11.6% təşkil edirdisə, 2024 cildə bu çəki 15.2% -i təşkil edib. BMT-nin Azərbaycan nümayəndiyinin Əhali Fondunun tədqiqatlarına görə isə Azərbaycan əhalisinin 60 və daha yüxarı yaş qrupunun

xüsusi çəkisi 2030-cu ildə 20%, 2050-ci ildə isə 25% dək artması ehtimal olunur [3]. Bu isə “HelpAge İnternotional”a görə o deməkdir ki, əhalisinin 20-29% -i 60 və daha yuxrı yaş qruna daxildirsə belə bir toplum sürətlə yaşlanan toplum hesab olunur. Əhalinin belə sürətlə yaşlanmasına, iqtisadi inkişaf, həyat səviyyəsinin yüksəlməsi, eləcədə qabaqcil tibbi avadanlıqıar və sanitar sistemin yaxşılaşması səbəb olan amillər sırasına daxildir. Lakin, əhalinin bu sürətlə yaşlanması və həyat tərzinin yüksəlməsi, yaşlılıq dövründə həyat keyfiyyətinin yüksək olduğu ilə bağlı bir sıra fərdi indikatorların, eləcədə məşğulluq, yoxsulluq və həyat məmunluğu kimi istifadə olunan hallar cəmiyyətdə ictimai fikir birliyinin olmaması ilə müşaidə olunmaqdadır. BMT-nin 2023-ci il üzrə Azərbaycanda illik hesabatında demoqrafik və sosial göstəricilərində əhalinin gözlənilən ömür üzunluğu umumi -76, kişilər üçün-73,6, qadınlar üçün 78,4 hesablanmışdır [3]. Sürətlə dəyişən, inkişaf edən həyatımızda əhalinin yaşlı əhali qrupuna göstərilən sosial xidmət istiqamətlərini müəyyənləşdirmək olduqca vacibdir. Bu xidmətlərin göstərilməsində aktuallıq dərəcələrinə uyğun olaraq yaşlıların rifahlı həyat tərzinin təmin olunması da əsas şərtlərdən biridir.

## Tədqiqatın təhlili

“Yaşlılık” yaşlı olma ifadəsi anlamı kimi, yetişkinliyin davamı olan ömrün ardıcıl olaraq, yaş üstünə yaş gəlməsini və ahil, ixtiyarlıq dövrləri ilə ömrün sonuna qədər davam edən yaşamdır. “Yaş yalnız xronoloji olaraq deyil, biyoloji, psixoloji və sosial baxımdan qəbul oluna bilən bir hadisədir” [4]. İctimai şüurda yaşlılıq dövrünün müəyyənləşməsi həm rəsmi pensiya yaşından, həm də cəmiyyətə xas mədəni amillərdən qaynaqlanır. “Kimin “yaşlı”, kiminsə hələ “cavan” hesab olunması zaman-zaman dəyişir. Bu, heç də həmişə obyektiv göstəricilərlə (pasport yaşı, əmək fəaliyyətinin dayandırılması) şərtlənməyib, subyektiv amillərlə əlaqələndirilir” [5]. Yaşlılıq dönəmi başladıqda insanda fiziki və ruhi dəyişikliklər baş verir. İnsana xas olan bəzi instikt bioloji və fiziki kefiyyətlərin, belə ki, yaşlılarda ilkin olaraq əmək qabiliyyətinin və fərdi təhlükəsizlik xüsusiyyətlərinin azalması müşahidə olunur. “Yaşlılıq yalnız təqvimə əsaslanan gün hesabı ilə ortaya qoyulan hadisə deyil, o, insanın bioloji, psixoloji, sosial və hüquqi meyyarları olan bir yaşam dönəmidir” [6]. Dünya Səhiyyə Təşkilatının yaşlıları tipologiya ayıraraq: 45-59 yaş orta, 60-74 yaş yaşlılıq, 75-89 irəli yaşlılıq, 90 və daha yuxarı yaşda olanları ixtiyar yaşda olanlar adlandırır. Azərbaycanda 60-65 yaş aralığında olan insanlar başlanğıc yaşlılıq dövründə hesab olunurlar. Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi apardığı son islahatlar nəticəsində qəbul olunmuş qanunvericiliyə əsasən ölkədə 65 yaşı tamam olan şəxsin ilk əmək qabiliyyətinin zəiflədiyi və əmək pensiyasi və ya sosial təminat almaq hüququnun yarandığı yaşdır [7].

Xüsusi statusa malik olmayan ixtisas sahibləri ölkə qanunvericiliyinə görə əmək fəaliyyətlərini sonlandıraraq, davamlı ictimai-mədəni mühütdən bir addım kənarda qalırlar. İşsizlik, aztəminatlıq, sağlamlıq imkanların məhdudluğu və xəstəlik yaşılıların həyat keyfiyyətinin aşağı olmasına səbəb olur. Həmcının cəmiyyətdə ailə stukturundakı dəyişiklik də yaşlı insanları sosial rifahının yaxşılaşdırılmasına və ya zəifləməsinə təsir edən amillər sirasına daxildir. Statistik məlumatlardan göründüyü kimi Azərbaycan əhalisin sayı son 30 ildə artmışdır. "18 yaşınadək uşaqları olan ailələrin sayında artım müşahidə olunsada (3%), 3 və 4 sayda uşaqları olan ailələrin sayında (20%) azalma, 4 və daha çox uşaq olan ailələrin saında isə (41%) azalma vardır"[8]. Bu cür ailə stukturdakı dəyişmələr türk kökənli cəmiyyət üçün yaşlı insanların baxıma olan ehtiyaclarının qarşılanması üçün müvafiq qayğı xidmətlərinin lazımı səviyyədə yetərli olmamasına səbəb kimi dəyərləndirilə bilər. Ailə strukturundakı dəyişiklik nəsillərarası əlaqənin, həmrəyliyin və dəstəyin zəifləməsinə gətirib çıxarır. Vaxt keçdikcə ailədə (uşağın ailədən ayrılması, uşağın evlənməsi,yalnızlıq, dulluq və sonda ölüm) bəzi dəyişikliklər və keçidlər baş verir. Qeyd olunanlar ailənin yaşlı üzvlərinin baxım gözləntilərinin və ehtiyaclarının artmasına, yeni yaranacaq yalnızlıq qorxusunu yaranmasına səbəb olur. Hər bir cəmiyyətin özünəməxsus adət-ənənsi, milli dəyərləri vardır. Azərbaycan ailəsində övladlıq borcu ilə bağlı sosial normalar və ailənin yaşlılara qayğı sahəsində məsuliyyətlər çox xoş bir haldırdır ki, hələ də qalmaqdadır. Lakin, müasir dövrün həyat tərzinin yaratdığı reallıqlar, ailə strukturunun dəyişmə səbəbləri yalnızlıq qorxusu olan ahılların sosial rifah sərmayə azlıqları dövlətin, eləcədə Hacı Hacağa kimi xeyriyyəçilərin üzərinə müəyyən vəzifələri qoymaq məsuliyyətini yaradır. Yalnızlıq qorxusunun azaldılması ilə əlaqədar dövlətin üzərinə düşən vəzifələrdən biri də sürətlə yaşlanan cəmiyyətdə yaşlıların sosial problemlərin həllinə yönəlik tədbirlərin görülməsini diqqətdə saxlaması məsələsidir. Belə ki, yuxarıda qeyd olunan əhalinin yaşlanma göstəricisinə və ailə strukturundakı dəyişikliyin tələblərindən irəli gələn ahıl və yalnız yaşlıların sosial rifahının təmin olunması üçün Bakıda və regional ərazilərdə yeni "qocalar və ahıllar evinin" – sosial xidmət müəssisələrinin yaradılmasına ehtiyac vardır. "Sosial xidmət və norma dedikdə, bu və ya digər mədəniyyətdə arzuolunan və ya uyğun hesab edilən davranış haqqında ümumi qəbul olunmuş gözləntilər nəzərdə tutulur" [9]. Sosial Tədqiqatlar Mərkəzinin 2019-cu ilin noyabr ayında apardığı tədqiqatın nəticələrinə görə "Gələcəkdə yaşlıların sayı daha çox olacaq. Fikrinizcə, onların tələbatlarını ödəmək üçün əsas məsuliyyət kimin üzərindədir?" sorğusuna respondentlərin 68.8%- ailənin, 62.1%- sosial işçilərin (dövlətin), 22.4% - özəl sektorun, 35.4%-xeyriyyə cəmiyyətlərinin öhdəsinə düşdüyünü düşündüklərini ifadə etmişdirlər [5.səh-17] . Göründüyü kimi cəmiyyətin özünəməxsus adət-ənənsi, milli dəyərləri, tarixi ideoloji baxışları hələ də özünü qoruyub saxlamış, lakin ölkəmizdə doğum səviyyəsinin azalması, əhalinin yaş strukturunda yaşlıların payının artması, ailə normalarına daxil olan yaşlılara qayğı və baxım imkanlarını məhdudlaşdırmiş bununla da yeni sosial xidmət müəssisələrinin açılması zərurətini yaratmışdır. Elə həmin tədqiqat sorğusunda "Yetkin övladlar ailə vəziyyətindən asılı olmayaraq, yaşlı valideynlərinə

yaxın yerdə yaşamalıdırlar ki, lazım olanda onlara kömək etsinlər" sualına respondentlər arasında 83%-nin müsbət cavablandırması cəmiyyətdə yaşlılara göstərilən qayğının və qəbul olunmuş sosial normaların hələ də üstünlük təşkil etdiyini göstərir. Qeyd olunan müsbət tendensiyada yola çixaraq, yaşlılara göstərilən qayğiyla yanaşı onların sosial rifah sərmayəsinə təsir edən yalnızlıq düşüncələrinin hansı vəziyyətdə olmasını yoxlamaq məqsədiylə Üsküdar Üniversitesi Sosyoloji Bölümü, Sosyal Bilimler Enstitüsü Psikoloji Bölümü ve Metod Araştırma Şirketi tarafından hazırlanmış Anket sogusunu 2024-ci il dekabr ayında onlayn şəkildə Azərbaycan əhalisin yaşı 60 yaşdan yuxarı olan 86 respondent arasında aparılan sorgunun bəzi maraqlı nəticələridən, Azərbaycan yaşlılarının yalnizlıq haqqında düşüncələrinin daha çox ailə bağları ilə sıx əlaqəsinin olduğu görülür. Anket sorğusunun yalnizlıqla birbaşa bağlı olan bəzi sualların nəticələrinə nəzər yetirək.

***Boş vaxtlarınızda nə ilə məşğul olursunuz?***

- Nəvələrə/övladlara qulluq , ailə ilə söhbət- 50%
- Kafeteriya, səhər yemeyi, restorana getmək-19%
- Kino/serial , Tvproqramına baxmaq -11%
- İbadət və mənəvi rituallar yerinə yetirirəm- 4%

***Özünüzü nə qədər tez-tez tənha hiss edirsiniz?***

- Nadir hallarda -30%
- Bəzən – 22%
- Heç vaxt- 18%
- Tez-tez- 2%

***Söhbət etmək üçün ən çox kimlə danışırsız?***

- Həyat yoldaşımla-25%
- Övladımla- 36 %
- Qohumla- 24%
- Dostumla-15%

***Həyatda Sizi xoşbəxt edən kimdir, nədir?***

- Uşaqlarım-40%
- Nəvələrim-45%
- Həyat yoldaşım-15%

***Yalnızlıq sizdə hansı hissi oyadır?***

- Yalnızlıq, sıxıcılıq, tənhalıq və kimsəsizlik- 31%
- Qorxu, kədər qəm – 26%

- Müdriklik, dözüm, dirəniş- 21%
- Özünəqapanma, depresiya, halsızlıq-19%
- Rahatlıq, dincəlmə, plan qurma- 3%

Qoyulan sualların təhlilindən aydın olur ki, qarşılıqlı təsir əlaqəsində olan sualların cavablandırılmasında yaşlıların yalnizlıq düşüncəsi onu göstərir ki, müəyyən qrup yaşlıların yalnızlıqla bağlı olan sosial vəziyyətin bizim cəmiyyətdə hələ təhlükəli və ya qorxulu səviyydə olmadığı kimi görünür. Azərbaycan cəmiyyətində yaşlıların yalnızlıq düşüncələri elə onların özləri tərəfindən ənənəvi yaşam tərzinin qorunub saxlanmasıyla yaşlıları yalnızlıq təhlükəsindən uzaq saxlamaqdadır. Lakin, qeyd etmək lazımdır ki, bu sorgu online formada keçirilmişdir və anketdə iştirak edənlərin əksəriyyəti ailə içində birgə yaşayan yaşlı insanlar arasında aparılmışdır. Aparılan anket sorğusundan göründüyü kimi yaşlılar arasında yalnız yaşamağı təqdir edənlərin sayı az olsa da, bu məsələdə aparılan tədiqat onu göstərir ki, yaşlıların çoxunun öz övladlarıyla birlikdə yaşamaq istədikləri görünür. Yuxarıda qeyd olunan statistik göstəricilərə görə sürətli yaşlanma səbəbindən qısa zaman müddətindən sonra yaşlılar yalnız yaşamaq məcuriyyətində qalacaqlar. Yalnız yaşayan yaşlılar isə qarşılaşdıqların çətinliklərin və ehtiyaclarının özləri tərəfindən həll etmək iqtidarında olmadıqları halda bu vəziyyət onları həyatdan, yaşamaqdan bezdirmiş olacaqdır. Həyata doymuş, özlərinə güvənə bilmədiklərini hiss edən yaşlılar beləliklə sosial həyatdan kənarlaşmış, sosial yadlaşma vəziyyətinə düçar olurlar. “Sosial yadlaşma anlayışını sadə dildə fərdlərin cəmiyyətin əsas xəttindən kənarda qalması kimi başa düşülür” [10]. “Sosial yadlaşma cəmiyyət resurslarından, haqq və hüquqlardan, sosial xidmətlərdən kənar qalma, bunlara əlçatanlığın zəif olması yaxud olmaması, eləcədə, cəmiyyət üzvlərinin çoxunun sahip olduğu əlaqə və münasibətlərin aradan getməsi, itməsi vəziyyətdir” [11]. Azərbaycanda ailə stukturunun dəyişməsi, cəmiyyətin sürətli yaşlanması yaşlı insanların, yalnızlıq problemiylə bərabər onların cəmiyyətdə sosial yadlaşma prosesini də ortaya çıxarır. Belə bir vəziyyət daha çox şəhər mühitində yaşayan yaşlı insanların qarşılaşdığı haldır. Artıq 65 yaşında olan şəxs əmək fəaliyyətinin rəsmi olaraq itirildiyi hesab olunan yaşlıdır. Yaşlı yalnız əmək bazarında yadlaşma ilə deyil, həm sosial münasibətlərini itirməklə, həm də vərdiş etdiyi həyat tərzindən uzaq düşməklə sonucda sosial yalnızlaşmağa düçar olur.

Nəzərə almaq lazımdır ki, şəhər və kəndlərdə tənha yaşayan ahıl şəxslərin saldosu tam dəqiq olmsa da umumilikdə Soial Xidmət Agentliyi tərəfində 741 nəfəri kişi, 2126 nəfəri qadin olmaq 2867 nəfər ahıl şəxslərə səyyar-sosial xidmət ğöstərilməsi qeyd olunmuşdur [12]. Ölkə əhalisinin 2024-cı ildə yaşlılıq göstəricisi umumi əhalı sayında çəkisi 15.2% -i təşkil edibsə, onda Sosial Xidmət Agentliyinin göstərdiyi xidmətin say nisbəti 0.0002% bərabərdır. Bu göstərici, ölkə üzrə yaşlı əhali qrupunun sosial xidmətdən yararlanmaq imkanlarına əlçatanlığının müasir

dövrdə əvvəlki illərə nisbətən daha asan olmasına baxmayaraq, xidmətlərdən istifadə edə bilməyənlərin sayının heç də az olmadığını ifadə edir. Ölkə əhalisin 15.2%-nin yaşlıların olduğu halda yaşlı və ahıl şəxslərə əsası 1870-ci illərdə milyonçu-xeyriyyəçi Hacı Hacıağa Dadaşov tərəfindən qoyulan "Qocalar Evi"daha sonralar 1964-1989-cu illərdə 10 saylı Qocalar və Əlillər evi, 1989-2015-ci illərdə Müharibə və Əmək Əlilləri üçün Pansionat, 2015-2020-ci illərdə Pensiya yaşına çatmış şəxslər üçün Sosial Xidmət Müəssisəsi, 2020-ci ildən isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıl şəxslər üçün fəaliyyət göstərən xüsusi təyinatlı yeganə sosial xidmət müəssisəsidir [13] . Bu müəssisənin qəbul imkanlarının cəmi 170 nəfərlik olduğnu, əhalinin yaşlılıq səviyyəsi və göstərilən xidmət ehtiyaclarının umumi vəziyyəti isə onu tələb edir ki, yeni xidmət müəssisələrinin yaranması labüddir.

Yaşlıların yalnızlığına ailə və iş həyatındakı rollarının, eləcədə yaşayış yerinin dəyişməsi, əsas səbəb olan amil kimi sayıla bilər. Ərin ya arvadın vəfat etməsi, digər ailə üzvlərinin əvvəlki kimi bir yerdə olmamaqları, uzaqda yaşamaları, qohumlarla six–six görüməmək, qonşu və dostlarlardan üzaq düşmək maddi ehtiyacları olmayanları belə sosial yadlaşmaya düçar edir. Üstəlik, aztəminatlılıq, yoxsulluq, mənzil şəraitinin acınacaqlı vəziyyətdə olması, sağlıq dürümü ağır olan yaşlıların yalnızlığı və sosial yadlaşması daha acınacaqlıdır. Öıkələrin yaşlılara yönəlik sosial müdafiə siyasəti və sosial xidmətlərin yaşlıların qarşılaşdığı sosial yadlaşmanın qarşısının alınmasına istiqamətlənir. "Yaşlılara dair sosial müdafiə dairəsinin azalması, sosial yardımların məhdudlaşdırılması, pensiya təminatının yaş həddi yüksəldilməsi, əhalinin tənha-yalnız yaşayan yaşlılarına xidmətin zəif olması, hətta ailələrdə yaşayan yaşlıların yalnızlığına səbəb olmaqdadır" [14]. İnkişaf etməkdə olan cəmiyyətin dəyişməsi yaşlıların daha yaxşı və layiqli həyat tərzinə malik yaşam göstəriciləri keçmişdəkilərə görə fərqli olmuşdur. Günümüzdə yaşlılar daha kiçik ailə içində və ya tək başına yaşayırlar. Bir cox tədqiqatçıların da gəldiyi qənaətə görə yalnız yaşayan yaşlının, ailə içində və ya sosial xidmət mərkəzlərində yaşayan yaşılara nisbətən daha cox depresiyaya məruz qaldığı və özünü yalnız hiss etdiyi təsdiq olunmuşdur [15] . Birləşmiş Milətlər Təşkilatının İqtisadi və Sosial İşlər Departamentinin hazırladığı hesabatda yalnız və ya sosial xidmət mərkəzində yaşayan yaşlıların, ailələri ilə birlikdə yaşayanlardan daha yüksək ölüm riskinə sahib olduqları isbat edilmişdir [16]. Başqa bir tədqiqatda ailələri ilə qüvvətli bağlara sahib olan və qarşılıqlı dəstək alan yaşlıların, bu imkana sahib olmadıqları və qarşılıqlı münasibəti olmayan yalnız yaşayanların həyat və yaşam keyfiyyətlərinin daha aşağı olduğu qeyd olunmuşdur [17] .

## Nəticə

Azərbaycanda yaşlıların nəvələrinə və yaşlı ailə üzvlərinə qayğısına qalmaq ənənəvi ailə bağlarının möhkəmliyi, sosial normaların və dəyərlərin qorunması və

qarşılıqlı münasibətlərin həmrəyliyi, yaşlıların nəvələrindən aldıqları fərah hissi orta ömür üzunluğuna təsir edən amil kimi dəyərləndirilir. Lakin, sürətli dəyişən demoqrafik göstəricilər və ailə strukturundakı dəyişiklik əhalinin yaşlı qrupunun genişlənməsinə səbəb olmuşdur ki, bu da yaşlıların yalnizlıq probleminin yaranmasından meydan gələn ehtiyacların qarşılanması və onları həyatlarının sona yaxınlaşdığı dönəmləri daha ləyaqətli, yüsək həyat tərzinin təmin olunmasına yönəlik sosial xidmətlərin yerinə yetirilməsinə ehtiyac yaradacaqdır. Bu ehtiyacların qarşılanması isə sosial xidmət sahəsində üç-makro, mezzo və mikro səviyyədə müdaxilə planlarını həyata keçirilməlidir. Makro səviyyədə mudaxilə planına ilkin olaraq ölkə əhalisinin sürətli yaşlanma problemiylə əlaqədar böyük şəhərlərdə və regional mərkəzlərdə yalniz yaşlılar üçün xidmət müəssisələrinin açılmasını təşkil etməklə, yaşlıların öz həmyaşıtlarıyla qarşılıqlı münasibətdə olmaları, onların həyatlarında yenidən bir inam və ümüdin gəlməsini təmin etmiş olarıq. Eyni zamanda hər bir inzibatı bölgə üzrə bələdiyyələr tərəgindən yaşlı yalnız insanların informasiya bazasının yaradılmasının təmin olunması, dövlət sosial işçilərindən əlavə, xalqımız xas olan xeyriyyəçilər vasitəsiylə göstərilən xidmətlərin təşkili daha səmərəli və planlı şəkildə həyata keçirilə bilər. Mezzo səviyyədə sosial xidmət üçün nəzərdə tutulan müdaxilə planlarına qrup şəklində yanaşmalar tətbiq oluna bilər.

Belə ki, ailəsində yaşlı ailə üzvlərinə görə davranışların, yaşlılara ağsaqqal və ağbirçək xeyr-duasından bütün ailə mühütinə gələn bərəkətin var olduğuna və inanclara dayanma kimi danışmanlıq rolundan istifadə etmək olar. Mikro səviyyədə yalnız yaşlılara görə müdaxilə planına sosial işçinin fərdi şəkildə yalnız yaşayan yaşlıya əlaqəndirici rolundan istifadə etməklə, könüllülər vasitəsi ilə dəstək olaraq bir neçə proqram və layihələrin həyata keçırıməsini təşkil etmək faydalı ola bilər. Belə bir sosial xidmət cəmiyyətdə yaşlıların sosiallaşma prosesinin və nəsillərin həmrəylik prinsipinin yerinə yetirməklə gələcəyə açılan parlaq bir ümidin nümünəsi ola bilər. Əhalinin yaşlanmasını nəzərə alaraq, yaşlıların həyat keyfiyyətləri, eləcədə onların həyat tərzi və sosial rolları, sosial sərmayələrinin bütün istiqamətləri ilə bağlı tədqiqatların aparılmasına davamlı ehtiyac olacaqdır.

## Açıqlama bəyanatı

Məqalə çərçivəsində təqdim edilən məlumatlar və irəli sürülən mülahizələr müəllifin elmi yanaşması olmaqla, qurum (rəsmi) mövqeyini əks etdirməməkdədir.

**Əlaqə**

**E-mail**: eliza_ismayilova@yahoo.com
elizaismayilova@bsu.edu.az

## Ədəbiyyat:


Ağırman, E., Gençer, M. Z., Arıca, S., Kaya, E. ve Eğici, M. T. Huzurevinde, evde ailesiyle ve yalnız yaşayan yaşlı bireylerde depresyon, yalnızlık hissi düzeylerinin karşılaştırılması. Çağdaş Tıp Dergisi, 2017,7(3), 234- 240.

Azərbaycan Respublikası üçün fəal yaşlanma indeksi. ƏƏSMN. BAKI-2021.səh-12 file:///C:/Users/uSER/Desktop/Yeni%20kitablar/aze_activeageing_vw_azeri_new.pdf

Azərbaycanda yaşlılar qaygı və rifah. Analtik hesabat, səh-14. Aprel-2020. Sosial Tədqiqatlar Mərkəzi. file:///C:/Users/uSER/Desktop/Yeni%20kitablar/1659363494.Qaygi.pdf

E. S.Ismayılova. Fərdlər, qruplar və ailələrlə sosial iş.Dərs vəsaiti. Bakı: “Füyuzat” nəşriyyatı, 2022, 268 s.

Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi https://sosial.gov.az/fealiyyet/destek-istiqametleri/pensiya/pensiya/yasa-gore-emek-pensiyasi https://sxa.gov.az/fealiyyet/sosial-xidmet-muessiseleri/ahil-sexsler-ucun-sosial-xidmet-muessisesi

Humboldt, S. ve Leal, I. Adjustment to aging in late adulthood: A systematic review. International Journal of Gerontology,2014, 8(3), 108-113

Kalaycıoğlu, S., Tol, U. U., Küçükural, Ö. ve Cengiz, K.Yaşlılar ve Yaşlı Yakınları Açısından Yaşam Biçimi Tercihleri. Ankara: Türkiye Bilimler Akademisi,2003

Korkmaz Yaylagül, N., Barlın, H. ve Kırışık, H. Yaşlılıkta sosyal dışlanma araştırmaları: Bir içerik analizi. Tıbbi Sosyal Hizmet Dergisi(17), 2021,197-213.

Miranti, R. ve Yu, P.Why social exclusion persists among older people in Australia. Social Inclusion, 3(4), 2015,112-126.

Moffatt, S. ve Glasgow, N. How useful is the concept of social exclusion when applied to rural older people in the United Kingdom and the United States? Regional Studies, 2009,43(10), 1291-1303

Muis, I., Agustang, A., ve Adam, A. Elderly poverty: Social demographic, work distribution, problem health & social protection. Asian Journal of Social Sciences & Humanities,2020. 9(1), 40-48.

Scott J. Oxford Dictionary of Sociology/ Oxford University Press,2014

Sosial Xidmət Agentliyi. https://sxa.gov.az/media-sxa/xeberler/sosial-xidmetler-agentliyi-hazirda-329-ahil-er-arvadi-evde-seyyar-sosial-meiset-xidmeti-ile-temin-edir

UNDESA. World population ageing 2020 highlights: Living arrangements of older persons. New York: United Nations Department of Economic and Social Affairs,2020

Walker and Zaidi. Azərbaycan Respublikası üçün fəal yaşlanma indeksi.Bakı-2021 file:///C:/Users/uSER/Desktop/Yeni%20kitablar/aze_activeageing_vw_azeri_new.pdf https://azerbaijan.un.org/sites/default/files/2024-05/APR23_AZ.pdf


**Məqaləyə istinad:** Ismayılova .E. Yaşlılıq və yalnızlığın sosial xidmət perspektivindən araşdırılması. Elm və İnnovativ Texnologiyalar Jurnalı. Nömrə 31, 2024. S.96-110. https://doi.org/10.30546/2616-4418.31.2024.3040

## XÜLASƏ

## Yaşlılıq və yalnızlığın sosial xidmət perspektivindən araşdırılması

**Elizə İSMAYILOVA**
**Bakı Dövlət Universiteti, Azərbaycan**

Ölkəmizdə əhali sayının və gözlənilən ömür üzünluğunun artması ilə əlaqədar əhalinin yaşlanması və nəsilvermənin azalması, ailə strukturunun dəyişməsi cəmiyyətin sosial-iqtisadi inkişafına özünəməxsus müsbət və mənfi təsirlərini qoymaqdadır. Əhalinin yaşlı sayının artması ölkədə insanların yaşam tərzinin müsbətə doğru inkişafının göstəricisi kimi dəyərləndirilə bilər. Eyni zamanda əhalinin yaşlı, həssas və xüsusi qayğiya ehtiyacı olan təbəqələrinə göstərilən sosial xidmətlərin müsair tələblərə uygun şəkildə təşkili və tətbiqi əhalinin yaşlı və yalnız təbəqəsinin rifahının yaxşılaşdırılmasına əhəmiyyətli dərəcədə öz təsirini göstərir. Aparılan bu tədqiqatda verilən statiskaya görə ölkə əhalisinin say nisbətində yaşlıların sürətli artımı, onlar arasında yalnız, tənha yaşlıların sosial problemlərinin ailə içində, dövlət müəssisələrdə və cəmiyyətdə sosiallaşama prosesində yaranan problemlər, yalnızlıq səbəbləri və onların aradan qaldırılması məqsədi qoyulmuşdur. Məqsədin həyata keçirilməsi üçün bir cox nəzəri məlumatların təhlilləriylə yanaşı, satatisik məlumatlardan istifadə və 2024-ci ilin dekabr ayında online formada 89 respondent arasında anket sorğusu aparılmışdır. Alınan nəticələr əsasında yalnız yaşlılarla bağlı ölkəmizdə sosial xidmət ehtiyacları müəyyən olunmuşdur.

Hər bir cəmiyyətin özünəməxsus adət-ənənsi, milli dəyərləri vardır. Tarixən klassik ailə formasında yaşlılara xüsusi qayğı, böyüklərə ehtiram, ailə üzvlərinin həmrəyliyi ailə içində yaşayan yaşlıların yalnizlıq hissi kimi problemlərdən uzaq olmasına bir başa müsbət təsirini qoyurdu, hətta ailə icindəki yaşlı öz həyat yoldaşını itirmiş olsa belə. Müasir dövrdə isə ailə strukturundakı dəyişiklik nəsillərarası əlaqənin, həmrəyliyin və dəstəyin zəifləməsinə gətirib çıxarır. Azərbaycan ailəsində övladlıq borcu ilə bağlı sosial normalar və ailənin yaşlılara qayğı sahəsində məsuliyyətlər çox xoş bir haldırdır ki, hələ də qalmaqdadır. Lakin, müasir dövrün həyat tərzinin yaratdığı reallıqlar, ailə strukturunun dəyişmə səbəbləri yalnızlıq qorxusu olan ahılların sosial rifah sərmayə azlıqlarını ortaya qoymaqdadır. Bu problemin aradan qaldırılmasına dair sosial xidmət və sosial prinsiplərin müasir dövrün təkliflərinə uyğun şəkildə mikro, mezzo və makro səviyyələrdə həyata keçirilməsini məqsədəuygun hesab edir.

***Açar sözlər:*** Yaşlılıq, yaşlanma, yalnızlıq, sosial xidmət, rifah, həyat tərzi

## SUMMARY

### Exploring the themes of old age and loneliness from the perspective of social services

**Eliza ISMAYILOVA**
**Baku State University, Azerbaijan**

This paper examines the impact of population ageing, declining fertility, and changing family structures on socio-economic development in our country. The rise in the elderly population can be regarded as an indication of the positive evolution of people's lifestyles in the country. Concurrently, the organisation and implementation of social services for the elderly, vulnerable, and special care-needing segments of the population, in accordance with contemporary requirements, exert a substantial influence on enhancing the well-being of these segments. The statistical data presented in this study indicate that the primary objectives of the endeavour were to address the social problems of lonely elderly people, to enhance their socialisation within the family, state institutions, and society, and to eliminate the causes of loneliness. To this end, a comprehensive array of theoretical and statistical analyses was conducted, complemented by an online survey administered to 89 respondents in December 2024. The findings of this study have enabled the identification of social service needs specific to the elderly demographic within the country.

Each society is characterised by its own distinctive customs and national values. Historically, within the context of the classical family unit, the provision of special care for the elderly, the profound respect they received, and the strong sense of solidarity among family members, had a direct and positive impact on the prevention of problems such as loneliness among the elderly living within the family unit, even in cases where the elderly individual had experienced the loss of their spouse. However, in modern times, the changes in family structure are leading to a weakening of intergenerational connections, solidarity, and support. The social norms surrounding filial piety and familial responsibilities in caring for the elderly within the Azerbaijani family system are a commendable phenomenon that has endured. However, the realities engendered by contemporary lifestyles and shifts in family structure are indicative of a paucity of social welfare investment in the elderly, who are beset by a fear of loneliness.

It is deemed appropriate to implement social services and social principles at the micro, mezzo, and macro levels in accordance with contemporary proposals to address this issue. В этой статье рассматривается

***Keywords:*** Old age, aging, loneliness, social service, well-being, lifestyle

## РЕЗЮМЕ

### Изучение проблем старости и одиночества с точки зрения социальных служб

**Элиза ИСМАИЛОВА**
**Бакинский Государственный Университет, Азербайджан**

В нашей стране старение населения и снижение рождаемости, а также изменение структуры семьи, обусловленные ростом населения и продолжительности жизни, оказывают как положительное, так и отрицательное влияние на социально-экономическое развитие общества.Увеличение числа пожилых людей можно рассматривать как показатель позитивного развития образа жизни населения страны.В то же время организация и реализация социальных услуг, предоставляемых пожилым, уязвимым и нуждающимся в особом уходе слоям населения в соответствии с современными требованиями, оказывает существенное влияние на улучшение благосостояния пожилых и одиноких слоев населения.

На основе представленных в исследовании статистических данных были рассмотрены быстрый рост числа пожилых людей в населении страны, социальные проблемы одиноких пожилых людей среди них, проблемы, возникающие в процессе социализации в семье, в государственных учреждениях и в обществе, причины одиночества и их устранение.Для достижения этой цели, помимо анализа многочисленных теоретических данных, были использованы статистические данные, а также проведен онлайн-опрос среди 89 респондентов в декабре 2024 года.

На основе полученных результатов были определены потребности в социальных услугах для пожилых людей в нашей стране.Каждое общество имеет свои традиции и национальные ценности. Исторически сложилось так, что особый уход за пожилыми людьми, уважение к старшим и солидарность членов семьи в классической семейной форме оказывали положительное влияние на предотвращение проблем одиночества у пожилых людей, проживающих в семье, даже если пожилой член семьи потерял супруга.В современную эпоху изменения в структуре семьи приводят к ослаблению межпоколенческих связей, солидарности и поддержки.

Социальные нормы, связанные с сыновней почтительностью в азербайджанской семье и обязанностями семьи по уходу за пожилыми людьми, представляют собой очень благоприятную ситуацию, которая сохраняется до сих пор.Однако реалии, созданные современным образом жизни, и причины изменений в структуре семьи указывают на недостаток инвестиций в социальное обеспечение пожилых людей, которые боятся одиночества.Считается целесообразным внедрять социальные услуги и социальные принципы для решения этой проблемы на микро-, мезо- и макроуровнях в соответствии с предложениями современной эпохи.

***Ключевые слова:*** Старость, старение, одиночество, социальные услуги, благополучие, образ жизни